# Quba Rayon Mədəniyyət və Turizm Şöbəsinin nümunəvi xidməti



*Hazırda Quba Rayon Mədəniyyət və Turizm Şöbəsi nəzdində 18 mədəniyyət evi, 68 klub, 1 MKS və onun 91 filialı, 2 muzey, 1 uşaq incəsənət məktəbi, 1 uşaq musiqi məktəbi, 1 kinoteatr, 1 mədəniyyət və istirahət parkı, tarixi abidə mühafizəçiləri qrupu fəaliyyət göstərir. Bu müəssisədə 638 nəfər mədəniyyət işçisi çalışır.*

Heydər Əliyev Mərkəzində müntəzəm olaraq Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətinin, zəngin siyasi irsinin, dövlətçilik və azərbaycançılıq ideyasının təbliği ilə əlaqədar silsilə tədbirlər, "dəyirmi masa"lar, elmi-praktiki konfranslar, inşa müsabiqələri, ədəbi-bədii tədbirlər və intellektual oyunlar keçirilir. Qeyd etmək lazımdır ki, mərkəzdə 20 nəfərdən ibarət ulu öndər Heydər Əliyev irsini öyrənən qrup fəaliyyət göstərir. Hazırda burada pulsuz kompüter, ədəbiyyat, bacarıqlı əllər dərnəkləri fəaliyyət göstərir. Heydər Əliyev Mərkəzini ziyarət edənlər arasında xarici ölkələrin, o cümlədən Rusiya, Belarus, Türkiyə, Estoniya, Moldova, Ukrayna, Gürcüstan, Almaniya, İsrail, Fransa, Yunanıstan, Çin, Litva və sair ölkələrin yüksək səviyyəli qonaqları və nümayəndə heyətləri olmuşlar. Fərəhli haldır ki, mərkəzin iş təcrübəsi respublikamızın mədəniyyət işçiləri tərəfindən öyrənilir.

Əhalinin asudə vaxtının təşkilində B.Səfəroğlu adına mədəniyyət evi böyük rol oynayır. Hesabat dövründə burada 56 mədəni-kütləvi tədbir, 25-dən çox konsert təşkil olunmuşdur.

Mədəniyyət evində "Yeni il şənliyi", "20 Yanvar", "Xocalı soyqırımı", "Cəsurlar" hərbi oyunu, "Quba gənclər paytaxtı - 2014" və sair adlı tədbirlər də təşkil olunmuşdur. B.Səfəroğlu adına mədəniyyət evinin "Şahdağ" instrumental ansamblı vaxtaşırı "N" saylı hərbi hissədə olur. Rayonda ənənə şəklini almış "Alma" bayramı hamının marağına səbəb olmuşdur.

Rayon əhalisinin asudə vaxtının səmərəli təşkilində mərkəzləşmiş kitabxana sisteminin də rolu böyükdür. MKS ötən dövrdə 45 adda müxtəlif mövzularda kitab sərgiləri, məruzə, mühafizə, kitab müzakirəsi, oxucular konfransı və "dəyirmi masa" keçirmişdir. Mərkəzi kitabxanada Prezident İlham Əliyevin sərəncamı ilə bağlı A.A.Bakıxanovun, İ.Əfəndiyevin, M.Paşayevin, İ.Şıxlının, M.Hüseynin, N.Xəzrinin yubileyləri təşkil olunmuşdur. İndi burada 617.666 nüsxə ədəbiyyat vardır. 301.66 oxucuya 407.246 nüsxə kitab verilmişdir. Kitabxanaya 305 adda 3469 nüsxə ədəbiyyat daxil olmuşdur. MKS-da müxtəlif adda mədəni-kütləvi tədbirlər də həyata keçirilmişdir. Rayonda açıq havada keçirilən VII ümumrespublika kitab bayramı əhalinin zövqünü oxşamışdır.

Səyyar kitabxananın fəaliyyət dairəsi genişlənmişdir. Burada 300-dən çox bədii və elmi ədəbiyyat oxuculara təqdim edilmişdir.

A.A.Bakıxanov adına tarix-diyarşünaslıq muzeyi 2014-cü ildən yeni inşa olunmuş binada fəaliyyətini davam etdirir. Burada fond zənginləşdirilmiş, tematik mövzulu ekspozisiyanın hazırlanması, elmi axtarış işləri həyata keçirilmişdir.

**Rayon mədəniyyət və turizm şöbəsinin müdiri Fuad Orucov** qeyd etdi ki, A.A.Bakıxanov adına tarix-diyarşünaslıq muzeyi və filiallarda 20 Yanvar faciəsinin ildönümünü, Xocalı soyqırımı, Azərbaycanlıların Soyqırımı Günü, A.A.Bakıxanovun 220 illik yubileyi qeyd edilmişdir.

F.Orucov onu da dedi ki, fərdi qaydada muzeyə gələnlərin sayı 1400 nəfər, ekskursiyaya gələnlərin sayı 33.800 nəfər olmuşdur.

Şöbənin nəzdində fəaliyyət göstərən uşaq incəsənət məktəbində indi 10 ixtisas üzrə 407 şagird təhsil alır. Keçən il məktəbin şagirdlərindən 11-i respublikamızın ali və orta ixtisas məktəblərinə daxil olmuşdur. Məktəbin şagirdləri beynəlxalq tədbirdə də fəal iştirak edirlər. Uşaq musiqi məktəbində isə 8 ixtisas üzrə 221 nəfər şagird təhsil alır. Fəaliyyətə başladığı ildən məktəbi bitirən 220 şagirdin 20 nəfəri musiqi təmayüllü ali və orta ixtisas məktəblərində təhsillərini davam etdirmişlər.

F.Orucov turizm sektorundan söhbət açarkən qeyd etdi ki, Quba Rayon Turizm İnformasiya Mərkəzində keçən il 6274 yerli, 518 xarici turist qeydə alınmışdır, ümumilikdə, 70 minə yaxın turist gəlmişdir.

Onu da qeyd etmək lazımdır ki, rayon ərazisində 162 tarix-memarlıq abidəsi mövcuddur. Bunlardan 50-yə yaxını təbiət abidələridir.

Kənd mədəni-maarif müəssisələri də uğurla fəaliyyət göstərirlər. Zərdabi, Bağbanlı, Alman, İsnovkənd mədəniyyət evləri, Cimi, Xucbala, Talabi qışlaq, Güləzi kənd kitabxanaları, Rustov, Güləzi, Dağlı, Hacıhüseynli kənd kitabxana filialları, Paşaoba, Xaspolad, Qorxmaz oba kənd klubları keçən ili uğurla başa vurmuş, cari ildə də nümunəvi xidməti davam etdirməkdədir.

Onu da qeyd etmək lazımdır ki, Qubada inşa edilmiş "Gənclər mərkəzi" də əhalinin asudə vaxtının düzgün təşkilində yaxından iştirak edir.

Cari ildə rayonun mədəniyyət evləri, klublar, MKS və onun filialları, muzey və musiqi məktəbləri ilə bir çox mədəni-kütləvi, respublika və beynəlxalq əhəmiyyətli tədbirlər həyata keçirmişdir.

**Zabit CAVADOV,**
**"Respublika".**